

# AZƏRBAYCAN xalq mahnılarının janrlarına bir nəzər

Aytəkin Həsənova,
ADMİU-nun musiqi sənəti və dirijorluq kafedrasının müdiri, dosent

*Azərbaycan xalq mahnıları öz janr çeşidləri baxımından seçilərək xalq məişətinin müxtəlif cəhətlərini, onun tarixini, dünyagörüşünü əks etdirir.*
*Xalq mahnılarının janr növlərinə aşağıdakılar aiddirlər: a) zəhmət; b) ənənəvi-mərasim; c) məişət; q) hərbi; d) tarixi; e) sosial etiraz, azadlıq hərəkatı, xalq üsyanı və s.*

Bütün bu janr növləri öz məzmununa görə çox zəngindir. Bu janr nümunələri azərbaycanlılar arasında öz milli obrazlı-poetik və musiqi məzmunu, həyat şəraiti, psixologiyası və musiqi mədəniyyətinin xüsusiyyətləri ilə fərqlənirlər.

Əmək və ənənəvi mərasim mahnı yaradıcılığı ən qədim xalq yaradıcılığına aiddir. Məhz bu janrlar başqa mahnı janrlarının gələcək inkişafı üçün zəmin olmuşdur. Əmək və ənənəvi mərasim mahnılarının təhlili nəticəsində onların melodiya və ritmikasının, lad və formasının mürəkkəbliyi özünü büruzə verir. Bu cəhət onu sübut edir ki, əmək və ənənəvi mərasim mahnıları əsrlərlə kənd məişəti ilə əlaqədar yaranmış və başqa mahnı janrları ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir.

Azərbaycan əmək mahnıları öz məzmunu, poetikası və musiqisi baxımından çox rəngarəngdir. Onlar qədim dövrdən başlayaraq öz forma və quruluşuna görə çox sadə olmuş, son əsrlərdə inkişaf etmiş, püxtələşmiş, mürəkkəb bir forma almışdır. Bu kimi mahnılar bir tərəfdən əmək prosesini müşayiət edirsə, digər tərəfdən bunlarda kəndlinin əmək məişəti xarakterizə olunur.

Belə mahnılarda əkinçilik, maldarlıq, bağçaçılıq və başqa kənd əməyi öz əksini tapır.

«Zəhmət prosesini əks etdirən mahnılar tarlada yer şumlanarkən, toxum səpini zamanı, xırmanda taxıl döyülərkən, xalıxalça toxuyan dəzgah yanında həsir hörülərkən, bir sözlə əmək əsnasında meydana çıxmışdır» (1, s. 19).

Qədim Azərbaycan mahnılarına maldarlıqla əlaqədar yaranan sayaçı və əkinçiliklə bağlı holavarlar aiddir.

Maldarlıqla əlaqədar mahnıların əksəriyyəti çoban əməyinə aiddirlər. Bunun üçün də kişi əməyinin əsas mahnıları çoban əməyini tərənnüm edir. Bu qəbildən olan mahnılar əsasən, öz məzmunu etibarilə improvizə xarakterlidir və avazlı-reçitativ üsluba malikdir. Buna gözəl nümunə «Çoban avazı» (not yazısı V.Krivonosovundur) ola bilər.

Cütçü əməyi ilə əlaqədar mahnılar da xüsusi yer tutur. Bu kimi mahnıların mətni improvizəli, melodiyası isə reçitativ tərzlidir. Bunlarda həmçinin biçinçinin gərgin əmək tərzi və ağır şəraiti əks olunur. «Şum nəğməsi», «Çıxdı günəş», «Çək, şumla yeri», «Xırman mahnısı», «Biçinçiyəm» və b. nümunələr bu qəbildən olan mahnılara aiddir.

Azərbaycanda qadın əməyinin müxtəlif növləri ilə əlaqədar mahnılar da az deyil. Məsələn, toxuculuq, əl dəyirmanında iş, ev heyvanlarının sağılması, süd məhsullarının hazırlanması, çay, düyü, üzüm yığımı və s. Azərbaycan qadınlarının əməyi vəsf olunur.

Onu da deyək ki, toxuculuq, xüsusilə xalça toxunması uzun əsrlərdir ki, öz toxuyucusundan gərgin əmək tələb edərək Azərbaycanda yüksək sənət səviyyəsinə qalxmışdır.

Xüsusilə, qadın əməyi ilə əlaqədar sayaçı mahnılarını

qeyd etmək lazımdır. Məsələn, «Tütü nənəm» (not yazısı Ü.Hacıbəyovundur) mahnısında sağıcı qadın inəyin çox süd verməsi üçün həzin bir avazla onu oxşayır:

*Qızıl inək, yiyən mənəm,*
*Sənə qızıl deyən mənəm.*
*Tütü nənəm, nənəm, nənəm,*
*Səni sağan mənəm, mənəm.*

Bu mahnıda dərin ifadəli obrazlarda keçən əsrlərdən Azərbaycan qadınının vəziyyəti xarakterizə olunur.

Azərbaycan xalq yaradıcılığının ənənəvi mərasim mahnılarının ən qədim növlərinə toy və yas mərasimi aiddirlər.

Ənənəvi mərasim mahnılarını iki qrupa ayırmaq olar: a) ailə; b) mövsüm mahnıları. Birincilərə toy və yas mərasimi, ikincilərə təqvim mahnıları aiddirlər.

Mövsüm mahnılarında insanlar təbiət qüvvələri ilə - quraqlıqla mübarizə aparmış, günəşin, yağışın olmasını arzulamışlar. Qədim ənənələrdən biri - «Günəşi çağırır» mərasimi bu baxımdan parlaq nümunə ola bilər.

Mövsüm mərasimlərində «Xıdır İlyas» haqqında olan mahnılarda da yaşıllıq, yağış arzusu vəsf edilir.

Mahnı bayram şənliklərinin iştirakçısıdır. Bu mənada Novruz bayramında oxunan mahnılar şən, şux, nikbin xarakterlidirlər. Novruz bayramı mərasimi bu günümüzdə də geniş qeyd olunur.

Ənənəvi-mərasim mahnılarının müəyyən hissəsi isə insan həyatında baş verən kədərli hadisələrlə - yas mərasimi ilə bağlıdır. Ağılar, bayatılar və oxşamalar dediklərimizə nümunə ola bilərlər.

Sənətşünaslıq namizədi, professor S.Seyidova matəm mərasimini belə xarakterizə edir: «Matəm mərasimi məna, məzmun və bədii xüsusiyyətlərinə görə iki cür olur:

1. İnsanın həyatdan getməsilə əlaqədar qurulun mərasimlər;
2. İslam tarixinin ilk dövrlərində din uğrunda mübarizədə həlak olanların xatirəsinə həsr olunmuş matəm-təxiyə mərasimləri.

Matəm mərasimlərində dünyəvi, dini və müxtəlif etiqad amilləri birgə iştirak edib, onun formalaşmasına təsir göstəriblər» (2, s.11).

Matəm mahnıları qəmgin nidalarla başlanır və melodik cəhətdən qısa avazlardan ibarət olur. Onları professional ağıçılar (qadınlar) oxuyurlar. Musiqisi isə improvizəli-reçitativ üslubdadır.

Toy mərasimində daha çox mahnı oxuyurlar. Toy mərasim mahnıları rəqs, teatrlaşdırılmış səhnəciklərlə müşayiət olunur.

Toy mərasimində bir sıra mərhələlər icra edilir: elçilik, nişanlanma, xınayaxdı, gəlin gəlmə, toy, duvaqqapma və i.a. Hər bir mərhələnin özünəməxsus mahnıları mövcuddur.

Toy mahnıları içərisində lirik xarakterli mahnılar da çoxdur. Belə mahnılar toy mərasiminin müxtəlif anları ilə əlaqədar oxunulur. Məsələn, gəlini ata evindən yola saldıqda «Xoş getdin», oğlanın qohum-əqrabaları, dostları qız evinə yaxınlaşdıqda «Aparmağa gəlmişik», gəlin ər evinə gəldikdə nəsihətedici mahnılarla («Xoş gəldin», «Əylən gəlin») qarşılanır.

Xalq mahnılarının müəyyən hissəsi tarixi hadisələrin, ictimai-siyasi həyatın əsas cəhətlərini özündə əks etdirir. Xarici yadelli işğalçıların vəhşiliyindən həmişə əziyyət çəkən Azərbaycan xalqının həyatı məhz tarixi mahnılarda öz təcəssümünü tapır.

Tarixi mahnılar çoxdur. Onlar öz məzmununa görə zəngindirlər. Bunlarda Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi, tarixi şəxsiyyətlər tərənnüm olunur.

Bu haqda professor M.İsmayılov yazır: «Azərbaycan xalq yaradıcılığında cəsurluğu, nəcibliyi və doğruluğu tərənnüm edən, xalqımızı azad və xoşbəxt yaşamaq üçün mübarizəyə çağıran qəhrəmanlıq mahnıları (Cavanşir, Koroğlu, Qaçaq Nəbi, Qatır Məmməd kimi xalq qəhrəmanlarına həsr olunan mahnılar) da müəyyən yer tutur. Bu mahnılarda hakim sinfin ağır zülmünə qarşı nifrət motivləri coşqunluqla səslənir» (1, s. 20-21).

XVII əsrdə yadelli işğalçılara qarşı mübarizə aparan, kəndli hərəkatına rəhbərlik edən Koroğlu haqqında gözəl mahnılar yaranmışdır («Atlı Koroğlu», «Piyada Koroğlu» və s.).

Əmək və ənənəvi nəğmələrdən sonra özlərinə təşəkkül tapmış və daha böyük inkişafa uğramış başqa mahnı janrları da musiqi-üslub cəhətdən onların davamıdır. Bunlar ilk növbədə məişət mahnılarıdır. Xalqımız arasında məişət mahnıları çox geniş yayılmışdır.

Azərbaycan məişət mahnıları öz məzmununa görə rəngarəng, öz ifadə vasitələri baxımından zəngindir. Bunlar beşik və uşaq mahnıları, lirik, satirik və məzəli mahnılardır.



Azərbaycan məişət mahnıları arasında laylay və uşaq mahnıları öz əsasına görə xalq musiqi yaradıcılığımızın ən qədim növlərindəndir. Bu mənada onlar əmək və mərasim mahnılarına yaxındırlar.

Məişət mahnıları arasında məzəli və satirik mövzulu mahnılar da özünəməxsus yer tutur. Onların musiqisi üçün şux, nikbin, şən əhval-ruhiyyə, istehzalı gülüşlə bəzənmiş intonasiyalar, gümrahlıq, zarafat çox səciyyəvidir.

Şən, zarafat xarakterli məzəli mahnılar üçün tipik nümunələr olan «Ay qadası», «Məmmədhəsən» və başqaları həm mətni, həm təranələri lirika ünsürləri ilə bəzənmişdir.

Başqa xalqlarda olduğu kimi, məzəli mahnılar arasında dialoq-deyişmə mahnıları da az deyil. Bu kimi mahnılarda ifaçılar birbirinin ardınca oxuyur, öz aralarında bir növ «yarışırlar».

Azərbaycanda dialoq-deyişmə mahnılarının mətnləri adətən, improvizələrdən ibarət olurlar. Musiqi baxımından isə dialoq-deyişmələr tipli mahnılar sadə quruluşlu kuplet formasını özündə ehtiva edir.

Əmək mövzusu ilə əlaqədar uşaq mahnılarından «Çoban», «Çəkməçi baba», «Zəhmətin işığı» və sairələri maraqlı nümunələrdir.

Uşaq mahnıları arasında heyvanlar aləminə həsr olunmuş mahnılar («Quzu», «Xoruz», «Quşlar», «Durnalar» və s.) vardır.

Onu da qeyd edək ki, Azərbaycan məzəli və satirik mahnılar öz formasına görə çox sadə, ritm etibarilə dəqiqdir. Onlar adətən, sürətli tempdə olur, yarıreçitativ və yarıavazlı xasiyyət daşıyır. Bu mahnıların mətnlərində kiçik şer parçalarından istifadə olunur.

Sosial-etiraz mahnılarında sosial tematika əsas yer tutur. Kəndlinin ağır həyatı, xarici işğalçıların torpaqlarımıza hücumları, evlərin, kənd və şəhərlərin dağılması, viran olması xalq mahnılarında öz əksini tapır. Bununla əlaqədar xalqın xarici işğalçılara qarşı qəzəbini göstərən mahnılar, sosial-etiraz mahnıları, sosial haqsızlıq haqqında mahnı-şikayətlər əmələ gəlmişdir.

Beləliklə, qarşımıza qoyduğumuz məqsədlə əlaqədar bu qısa icmalda Azərbaycan xalq mahnılarının janr növləri, onların xarakterik cəhətləri ümumi şəkildə də olsa açıqlandı.

**Ədəbiyyat**


1. *M.S.İsmayılov. Azərbaycan xalq musiqisinin janrları. Bakı, "İşıq" nəşriyyatı, 1984.*
2. *S.Seyidova. Qədim Azərbaycan mərasim musiqisi. Ali və orta ixtisas musiqi məktəbləri üçün dərs vəsaiti. Bakı, «Mars-Print», 2005.*


**ADMİU-nun musiqi sənəti fakultəsi tərəfindən təqdim edilib - 6.02.2007.**
**Rəyçi: sənətşünaslıq doktoru, professor R.Zöhrabov.**

## View to the genres of Azerbaijan's folk songs


**Summary**

In the article by named with this tittle folk songs heve been looked into the genre peculiarities and experts opinions have been investigated.


## Взгляд на жанры азербайджанских народных песен


**Резюме**

Под заголовком названной статьи анализируются особенности жанров азербайджанских народных песен, раскрываются мысли и взгляды специалистов по данной проблеме.